UOT 37

***Mənzilə Ağarəhim qızı Rəhimova***
*fəlsəfə doktoru proqramı üzrə dissertant*
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin Cəlilabad filialının baş müəllimi*

# SİNİFDƏNXARİC VƏ MƏKTƏBDƏNKƏNAR TƏDBİRLƏR ZAMANI KİÇİK YAŞLI MƏKTƏBLİLƏRİN MƏNƏVİ TƏRBİYƏSİ MƏSƏLƏLƏRİ

***Манзила Агарагим гызы Рагимова***
*диссертант по программе доктора философии*
*старший преподаватель*
*Джалилабадского филиала Азербайджанского Государственного Педагогического Университета*

# ВОПРОСЫ НРАВСТВЕННОГО ВОСПИТАНИЯ ШКОЛЬНИКОВ МЛАДШЕГО ВОЗРАСТА ВО ВРЕМЯ ВНЕКЛАССНЫХ И ВНЕШКОЛЬНЫХ МЕРОПРИЯТИЙ

***Manzila Agarahim Rahimova***
*doctorial student in the program of doctor of philosophy*
*senior lecturer at*
*Jalilabad branch of Azerbaijan State Pedagogical University*

# ISSUES OF MORAL UPBRİNGİNG OF YOUNGER PUPILS DURING OUT-OF-CLASS AND OUT-SCHOOL ACTIVITIES

**Xülasə.** Pedaqoji prosesin qanunauyğunluqlarından irəli gələn, onun məzmun və üsullarına, təşkili formalarına təsir göstərən, müəllim və şagirdlərin fəaliyyətini səmərəli qurmağa əlverişli şərait yaradaraq rəhbər ideyalar kimi çıxış edən pedaqoji prinsiplər sinifdənxaric və məktəbdənkənar tərbiyə işlərində də mühüm əhəmiyyət kəsb edir. Sinifdənxaric və məktəbdənkənar tərbiyə işlərinin prinsipləri əxlaq tərbiyəsinin müvafiq pedaqoji qanunauyğunluqlarından irəli gələn, milli və ümumbəşəri dəyərlərin formalaşmasına güclü təsir göstərən amildir. Məqalədə sinifdənxaric və məktəbdənkənar tərbiyə işlərinin prinsiplərinin mahiyyəti kiçik yaşlı məktəblilərin mənəvi tərbiyəsi baxımından təhlil edilmişdir. Eləcə də kiçik yaşlı məktəblilərin tədris fəaliyyətinin sinifdənxaric və məktəbdənkənar işlərlə əlaqələndirilməsi məsələsinin onların mənəvi-əxlaqi keyfiyyətlərinə əhəmiyyətli dərəcədə təsiri və elmi dünyagörüşünün məqsədyönlü şəkildə formalaşdırılması problemi araşdırılmışdır.
***Açar sözlər:*** *kiçik yaşlı məktəblilər, mənəvi tərbiyə, sinifdənxaric tədbirlər, məktəbdənkənar tədbirlər, pedaqoji prinsiplər*

**Резюме.** Педагогические принципы, вытекающие из закономерностей педагогического процесса, влияющих на его содержание, методы и образовательные формы, создают благоприятные условия для успешной деятельности учителей и учащихся, а также играют важную роль во внеклассной и внешкольной воспитательной работе. Принципы внеклассной и внешкольной воспитательной работы являются фактором, вытекающим из соответствующих педагогических законов нравственного воспитания и оказывают сильное влияние на формирование общенациональных и общечеловеческих ценностей. В статье проводится анализ сущности принципов внеклассной и внешкольной работы в условиях нравственного воспитания учащихся младших классов. В статье также рассматривается взаимосвязь деятельности учащихся с внеклассной и внешкольной работой и ее роль в формировании у них нравственных качеств и научного мировоззрения.
***Ключевые слова:*** *младшие школьники, нравственное воспитание, внеклассные занятия, внешкольные занятия, педагогические принципы*

**Summary:** The pedagogical principles arising from the regularities of the pedagogical process, influencing its content, methods and forms of organization, acting as guiding ideas that create favorable conditions for the effective organization of teachers and students, are also important in out-of-class and out-

of-school education. The principles of out-of--class and out-of-school education are factors arising from the relevant pedagogical laws of moral education, and strongly influence the establishment of national and universal values. The article analyzes the essence of the principles of out-of-class and out-of-school education in terms of moral education of young students. Moreover, the issue of linking the educational activities of young students with out-of-class and out-of-school activities which has a significant impact on their moral and ethical qualities and the problem of establishing the scientific worldview purposively were analyzed.

***Key words**: junior schoolchildren, spiritual education, extracurricular activities, pedagogical principls*

Kiçik yaşlı məktəblilərin şəxsiyyətinin formalaşdırılmasında, onların mənəvi tərbiyəsində sinifdənxaric tədbirlərin rolu və imkanları kifayət qədər genişliklə nəzərə çarpır. Belə ki, sinifdənxaric işlər kiçik yaşlı məktəblilərin təlim imkanlarını fəallaşdırmaqla biliklərə maraq və məhəbbət tərbiyə edir. Uşaqlarda özlərinə inam formalaşdırır, şüurlu intizam yaradır, mənəvi əxlaqi keyfiyyətlər və mədəni davranış qaydaları, ətraf insanlarla düzgün ünsiyyət və münasibətdə olmaq vərdişləri aşılayır.

Sinifdənxaric və məktəbdənkənar tərbiyə işinin müvəffəqiyyətli nəticələr verməsi üçün tərbiyənin ümumi prinsiplərini rəhbər tutulmaqla bu tədbirlərin təşkilinin özünəməxsus pedaqoji prinsiplərinə ciddi əməl edilməlidir. Burada işlərin optimal quruluşu, mənəvi tərbiyənin məzmunu, səmərəli üsul və vasitələri əvvəldən axıra qədər diqqət önündə saxlanır. Ümumiyyətlə, sinifdənxaric və məktəbdənkənar tərbiyə işlərinin prinsipləri mənəvi, əxlaq tərbiyənin müvafiq pedaqoji qanunauyğunluqlarından irəli gələn məsələdir. Davranışla əlaqədar milli və ümumbəşəri dəyərlərin formalaşmasına güclü təsir göstərən aparıcı ideyadır. Prosesin təşkilində qüvvətli təsir gücünə malik olması onun başlıca səciyyəvi əlamətlərindən biridir.

Məlum olduğu kimi, prinsip hər hansı bir işi görməzdən əvvəl rəhbər tutulan ideya, nəzərə alınan tələb kimi başa düşülür. Humanistlik, demokratiklik, bərabərlik, şagirdyönlülük müasir təhsilimizin əsas prinsipləridir. Elmi-pedaqoji ədəbiyyatlarda, dərsliklərdə (3; 5; 6; 7; 8; 9; 10) də bunlar kifayət qədər təhlilə gətirilibdir. Bu prinsiplərin tətbiqindən sonra təhsilimizdə münasibətlər sistemi dəyişib. Müasir təhsil sistemində müəllimin fəaliyyət funksiyasında nəzərə çarpacaq yanaşma fərqlilikləri özünü göstərir. O, şagirdə artıq böyük, yaşlı, tərbiyəçi mövqeyindən deyil, onunla bərabərhüquqlu, qayğılarına şərik olan, müstəqilliyini qəbul edən birisi kimi yanaşır.

Pedaqoji prosesin qanunauyğunluqlarından irəli gələn, onun məzmununa, üsullarına və təşkili formalarına təsir göstərən, müəllim və şagirdlərin fəaliyyətini səmərəli qurmağa əlverişli şərait yaradan aparıcı, rəhbər ideyalara pedaqoji prinsiplər deyilir. Kiçik yaşlı məktəblilərin mənəvi tərbiyəsinin həyata keçirilməsində sinifdənxaric və məktəbdənkənar işlərin səmərəli təşkili üçün müəyyənləşmiş pedaqoji prinsiplər əsasən aşağıdakılardır:

1. Sinifdənxaric və məkltəbdənkənar tərbiyə işlərində kiçik yaşlı məktəblilərin maraq, meyl və tələbatının nəzərə alınması prinsipi.

Bu prinsip tələb edir ki, sinifdənxaric və məktəbdənkənar tərbiyə işi kiçik yaşlı məktəblilərin maraq və meylinə uyğun təşkili edilsin. Müəllim burada uşaqların maraq və həvəslərini, meylini, tələbatını öyrənməli və buna uyğun olaraq onları sinifdənxaric və məktəbdənkənar tərbiyə işlərinə istiqamətləndirməlidir. Marağı olmayan şagirdlər də müəyyən işlərə cəlb etməlidir.

2. Konüllülük prinsipi tələb edir ki, sinifdənxaric işlər, dərnək və klubların, bölmələrin, fakültativ məşğələlərin, idman işlərinin təşkili kiçik yaşlı məktəblilər tərəfindən könüllü olaraq seçilsin. Bu məsələdə müəllim və tərbiyəçilər, sinif müəllimləri şagirdlərə düzgün seçim üçün dəyərli, faydalı məsləhət və tövsiyələr, dəyərli istiqamətlər verməli, onları səmərəli fəaliyyətə sövq etdirməlidirlər. Adından da göründüyü kimi, b**u proses dərsdən fərqli olaraq məcburi yox, könüllüdür. Onun üçün də keçirilən məşğələlər canlı, maraqlı, cazibədar olmalıdır.**

3. Sinifdənxaric və məktəbdənkənar işlərin həyatla, praktik işlərlə əlaqələndirilməsi prinsipi isə tələb edir ki, burada aparılan işlər müasir həyatımızla, əməli fəaliyyətlə, quruculuq işləri ilə əlaqələndirilsin. Kiçik yaşlı məktəblilərin dərsdə öyrəndikləri biliklər sinifdənxaric

tədbirlərdə əməli, təcrübi işlərlə daha da möhkəmləndirilsin. Aldıqları nəzəri biliklər praktik işlərlə əlaqələndirilsin, istehsalatda, təcrübə işlərində tətbiq edilsin. Təbiətə, tarixi yerlərə ekskursiyalar vasitəsilə qazanılan biliklər möhkəmləndirilsin. Prosesin uğurlu təşkilinin nəticəsi olaraq, ən çətin mövzular praktik işlərlə əlaqələndirildikdə asanlıqla mənimsənilə bilər.

Pedaqoji prosesin həyatla əlaqələndirilməsi prinsipindən şagirdlər sinifdənxaric tədbirlər zamanı daha çox faydalanır. Əyani olaraq gördükləri, həm də mütəxəssislərdən aldıqları hərtərəfli məlumatlar onların biliyini genişləndirir, dünyagörüşlərini artırır. Geniş sosial-iqtisadi və mədəni-siyasi həyata qovuşdurur.

Öz üzərində mütəmadi çalışan sinif müəllimləri təlim və tərbiyənin həyatla əlaqələndirilməsi prinsipini yaradıcı fəaliyyətlərinə tətbiq etməklə, nəinki, ölkəmizdə, həm də dünya miqyasında siyasi və iqtisadi sahədə gedən proseslərlə də tanış olurlar. Kütləvi informasiya vasitələrinin məlumatlarından faydalanır və yenilikləri şagirdlərə ötürməklə onların dünyagörüşlərini inkişaf etdirirlər.

4. Sinifdənxaric və məktəbdənkənar məşğələlərin təşkilində əlverişli, münasib şəraitin yaradılması prinsipi xüsusi önəm daşıyır. Ümumiyyətlə, tərbiyəvi işlərin təşkilində əlverişli, münasib şərait yaradılması işin uğurluluq əmsalıdır. Sinifdənxaric tədbirlərdə əyani və texniki vasitələrdən istifadə edilməlidir. Kompüter texnikası, innovativ metodlar tətbiq edilməli, işin təyinat və məzmununa uyğun ola biləcək əlverişli şərait və mühit yaradılmalıdır. Professor Nurəddin Kazımovun "Məktəb pedaqogikası" adlı tədqiqatında bu prinsip haqqında yazılır: "Zəruri maddi-texniki bazada və mənəvi psixoloji mühitdə keçirilən təlim və tərbiyənin səviyyəsi yüksək olur" (5, s. 162). Bu prinsipi fəaliyyətlərində əsas tutan müəllimlər çalışırlar ki, məktəbdə dostluq və yoldaşlıq, səmimiyyət, qarşılıqlı hörmət, mənəvi iqlim olsun. Məhz belə bir sağlam mənəvi-psixoloji mühitdə müəllimin də, şagirdlərin də fəaliyyəti səmərəli olur.

5. Kiçik yaşlı məktəblilərin sinifdənxaric və məktəbdənkənar tədbirlərə cəlb edilməsində fərdi, psixoloji xüsusiyyətlərin, istedad və qabiliyyətlərin nəzərə alınması prinsipi də fəaliyyət zamanı önəmli tərəf kimi diqqət önünə gəlir. Bu prinsip tələb edir ki, şagirdlərin mövcud qabiliyyətləri, istedad və bacarıqları nəzərə alınmaqla, ona uyğun işlər təşkil edilsin. Belə olan tərzdə isə iş daha maraqlı və keyfiyyətlə yerinə yetirilmiş olur.

Şagirdlərin fərdi-psixoloji xüsusiyyətləri dedikdə, onların bilik, bacarıq və vərdişləri, habelə fiziki, fizioloji və psixoloji xüsusiyyətləri nəzərə alınır. Sinifdənxaric işlərin həyata keçirilməsi zamanı şagirdlərin bilik və bacarıq səviyyələri və fərdi-psixoloji inkişaf dərəcələri məşğələni aparan sinif müəllimləri tərəfindən müəyyən edilməlidir. Çünki hər iki cəhət təlimin müvəffəqiyyətinə təsir göstərir. Şagirdin mövcud bilik və bacarıq səviyyəsini üzə çıxarmayan, onların hafizə xüsusiyyətlərinə, düşüncə tərzinə əhəmiyyət verməyən müəllimin zəhməti tam nəticəsiz qalır. Müəllim öz fərdi iş üsulu ilə, yəni şagirdlərə yönəltdiyi suallar vasitəsi ilə keçdiyi mövzunun açılması üçün motivasiya yaratmalı və onları mövzu ətrafında mühakimə yürütməyə cəlb etməlidir. Məlumdur ki, təlim prosesində şagirdin fəaliyyəti adi şablon fəaliyyət ola bilməz. İstisna hallarda idrak səviyyəsi çox aşağı olan şagirdlər belə müəyyən fəaliyyətə malik olurlar. Şagirdin təlim prosesindəki fəaliyyəti onun bütün şüurlu fəaliyyətinin əsasını təşkil edir.

Fərdin hər bir normal fəaliyyəti onun idrak fəaliyyəti hesab olunur. Bu idrak fəaliyyətinə tələbatlar və motivasiya daxil edilir. Motiv rolunda tələbatlar, maraqlar, həvəs və emosiyalar, habelə yönəliş və ideallar da çıxış edə bilər. Məhz bu zaman fəaliyyətin müvəffəqiyyətli icrasına şərait yaranmış olur. Fəaliyyətin müvəffəqiyyətli icrasının mühüm şərti olan qabiliyyətlər onun üçün zəruri olan bilik, bacarıq və vərdişlərə yiyələnmə dinamikasındakı fərqlərdə ifadə olunur. Məhz bu fərq vasitəsilə bir şagirdin qabiliyyəti digərindən seçilir, yəni ya az, ya da çox olur. Qabiliyyətlər fərdin təfəkkür tərzini və xarakterini tənzimləyir. Ona görə yaxşı qabiliyyəti olan şagirdə həm də yaxşı təfəkkürü olan şagird kimi baxırlar. Şagirdlər qabiliyyət növlərinə görə müxtəlif olurlar. Deməli, şagirdin fərdi-psixoloji xüsusiyyətlərinin müəyyənləşdirilməsi, şagird şəxsiyyətinin formalaşdırılması, mənəvi tərbiyə işində ən zəruri prinsiplərdən hesab olunur.

6. Sinifdənxaric və məktəbdənkənar tədbirlərdə tələblərdə vahidlik və şagird şəxsiyyəti-

nə hörmət prinsipi şagirdlərə humanist yanaşmağı tələb edir. Sinifdənxaric tədbirlərdə şagirdlər sərbəst və öz arzu istəyi əsasında fəaliyyət göstərir. Bu zaman onlara vahid tələbkarlıqla hörmət edilməsi üzvi şəkildə əlaqələndirilib tətbiq edilməlidir. Görkəmli pedaqoq A.S. Makarenko bu prinsipdən ustalıqla istifadə etməklə uğurlar qazanmışdır. O, deyirdi ki, əgər məndən kimsə iş təcrübələrimin qısa formada məğzini öyrənmək istəsə mən ona belə cavab verərdim: "İnsana bacardıqca böyük tələbkarlıq göstərmək və bacardıqca hörmət etmək lazımdır".

7. Sinifdənxaric və məktəbdənkənar tədbirlərin təşkilində məktəblilərin yaş dərəcələrinə və anlaq səviyyəsinə uyğunluğu prinsipinə də xüsusi həssaslıq göstərilməlidir. Burada təbii olaraq tələb edir ki, uşaqlar yaşına, anlaq səviyyəsinə uyğun tərbiyəvi tədbirlərə qatılsınlar. Çünki kiçik yaşlı məktəblilərin özlərinə məxsus *psixoloji xüsusiyyətləri* vardır. Bu yaşda olan uşaqlarda qeyri-ixtiyari diqqət, mexaniki hafizə, konkret təfəkkür üstünlük təşkil edir. Onların nitq bacarığı bir qədər zəif olur. Çox vaxt mətnləri şeir kimi əzbərləyir, mexaniki yadda saxlamağa çalışırlar. Bunun qarşısı alınmasa əzbərçilik yarana bilər. Ona görə müəllim şagirdləri mətni öz sözləri ilə danışmağa, plan tutmağa, suallara cavab tapmağa, sərbəst mövzularda kiçik inşalar yazmağa daha çox cəlb etməlidir.

Bu yaşda *əsas fəaliyyət növü təlimdir. Uş*aqlar onunla biliklərə yiyələnir, tərbiyə olunur və psixi cəhətdən inkişaf edir. Müəllim şagirdlərə öz təlim əməklərini düzgün təşkil etməyə, öyrənmənin səmərəli yollarını öyrətməyə çalışmalıdır. K.D. Uşinski bunu ibtidai təlimdə bilik verməkdən də vacib vəzifə hesab edirdi. Kiçik yaşlı məktəblilərlə təlim-tərbiyə və sinifdənxaric işlərdə bu yaşın xüsusiyyətlərini nəzərə almaq mühüm əhəmiyyət kəsb edir. Onlardan başlıcaları aşağıdakılardan ibarətdir:

a) kiçik yaşlı məktəblilər hər şeyi öyrənməyə can atırlar; bunu nəzərə alıb şagirdlərdə mütaliə tələbatı formalaşdırmaq lazımdır;

b) uşaqlar şən, emosional təbiətə malikdirlər; müəllim və valideynlər bədii əsər və filmlərdən, canlı sözdən istifadə edib onlarda yüksək mənəvi hisslər (vətənə məhəbbət, xeyirxahlıq, qayğıkeşlik, diqqətlilik və s.) aşılamağa çalışmalıdırlar;

c) kiçik yaşlı məktəblilərdə ünsiyyət tələbatı güclüdür; bunu nəzərə alıb onları kollektiv tədbirlərə, birgə oyuna, əməyə cəlb etməklə kollektivçilik, yoldaşlıq, dostluq, nəzakətlilik, qızlara qarşı diqqətlilik kimi keyfiyyətlər aşılamaq lazımdır;

ç) uşaqlar təsir altına tez düşür, müəllimə inanır, onun dediklərini sözsüz yerinə yetirirlər. Bundan şagirdlərin düzgün tərbiyəsi üçün istifadə edilməlidir;

d) ibtidai sinif şagirdləri müəllimin tapşırıqlarını böyük həvəs və səylə yerinə yetirirlər. Müəllim və valideynlər müəyyən tapşırıqlar sistemi tətbiq etməklə, uşaqları həvəsləndirməklə onlarda müsbət keyfiyyətlər tərbiyə etməyə nail ola bilərlər.

Müşahidələr göstərir ki, bir çox hallarda sinifdənxaric və məktəbdənkənar işin rəhbərləri uşaqların yaş xüsusiyyətlərini nəzərə almır və bu baxımdan onlara düzgün yanaşmırlar. Uşaqların hansı yaşda, hansı keyfiyyət və vərdişlərin olması haqqında müəllim məlumatlı olmalıdır. Əks təqdirdə iş prosesində yaşanan münaqişələri nəinki aradan qaldırmaq iqtidarında olur, əksinə, belə hallar kütləviləşir, məktəbin və ailənin divarlarını aşaraq cəmiyyət arasında da böyük rezonansa səbəb olur.

Buradan belə nəticəyə gəlmək olar ki, ibtidai sinif şagirdlərinin yaş və fərdi xüsusiyyətlərini müəllim yaxşı bilməli və bunu nəzərə almağa peşəkarcasına yanaşmalıdır. Gündəlik həyatda əldə etdiyi psixoloji bilik və təcrübə ilə şagirdləri idarə etməli, onların təlim və tərbiyəsinin, sinifdənxaric işlərinin təşkilinə xüsusi diqqət yetirməlidir.

8. Sinifdənxaric işlərdə fərdi, cütlərlə iş, qrup və kollektiv iş formalarının bir-biri ilə əlaqələndirilməsi prinsipi.

Forma hər hansı fəaliyyətin, işin zahiri ifadəsidir. Sinifdənxaric işlərin təşkili forması müəllim və şagirdlərin müəyyən qaydada və rejimdə cərəyan edən birgə fəaliyyətinin ifadəsidir. Sinifdənxaric işin səmərəsi onun hansı formada təşkilindən çox asılıdır. Sinifdənxaric işin məqsəd və məzmunu onun təşkili forması ilə həyata keçirilir. Məzmun formanı müəyyən edir və onunla reallaşır. Ona görə də məzmunun həyata keçirilməsində səmərəli iş formalarının seçilməsi mühüm əhəmiyyətə malikdir. Bu halda fərdi, cütlərlə iş, qrup və kollektivlə iş bir-birilə əlaqələndirilməli və

kompleks şəkildə həyata keçirilməlidir.

**9.** Sinifdənxaric və məktəbdənkənar tərbiyə işlərinin təşkilində şagirdlərin şəxsi nailiyyətlərinə istinad edilməsi prinsipi. *Kütləvilik prinsipi tələb edir ki, sinifdənxaric və məktəbdənkənar işlər şagirdləri kütləvi şəkildə öz ətrafında birləşdirsin. Kütləvilik, şagirdlərin yaradıcılıqlarının inkişafına müsbət təsir göstərdiyi üçün daha çox məktəblini ora cəlb etmək lazımdır. Şagirdlərin praktik biliklərə yiyələnməsi baxımından da kütləvi məşğələlərin böyük xeyri vardır.* Bu prinsip tələb edir ki, sinifdənxaric və məktəbdənkənar tərbiyə işlərində uşaqların uğurları nəzərə alınmalı, onları bu nailiyyətləri artırmağa sövq etdirməli, əldə olunanlar əsasında stimul yaradılmalıdır.

10. Sinifdənxaric və məktəbdənkənar işlərin təşkilində humanizm prinsipi.

Müasir dövrdə ümumtəhsil məktəblərində təlim-tərbiyə prosesinin humanistləşdirilməsi və demokratikləşdirilməsi vacib pedaqoji problemlərdən biridir. Belə ki, böyüyən nəslin həyata hazırlanmasında, onlarda humanist dünyagörüşünün formalaşdırılmasında sinifdənxaric və məktəbdənkənar tədbirlərin mühüm rolu vardır.

Humanizm ümumi təhsilin məqsədindən, dövlətin təhsil sahəsindəki prinsip və tələblərindən irəli gəlir. Təhsil cəmiyyətin və dövlətin mənəvi, sosial, iqtisadi, mədəni inkişafının əsasıdır. Təhsil ailə, cəmiyyət, dövlət qarşısında məsuliyyətini dərk etməklə yanaşı, başqalarının hüquq və azadlıqlarına hörmət edən, müstəqil, azad, yaradıcı, mədəni, əxlaqi və intellektual səviyyəsi ilə fərqlənən şəxsiyyətin formalaşması məqsədi daşıyır.

Məktəbin məqsədi təhsilin humanist məzmununda öz əksini tapır. Ümumiyyətlə, məktəbin məqsədlər sistemini müəyyənləşdirməli olsaq aşağıdakı mənzərənin şahidi olarıq: oxumağı öyrətmək; hesablamağı öyrətmək; danışmağı öyrətmək; ünsiyyətdə olmağı öyrətmək; ümumu oxuma (öyrənmə) bacarıqlarını öyrətmək; fənlər üzrə bilik, bacarıq və vərdişləri öyrətmək; intellektual bacarıqları formalaşdırmaq; emosional sferanı inkişaf etdirmək; motivasiya sferasını inkişaf etdirmək; iradə sferasını inkişaf etdirmək; əməkdaşlıq münasibətləri öyrətmək; qanuna tabe olmağı öyrətmək və s. Bu məqsədlərin metodoloji əsasını təhsilin müasirləşdirilməsi, humanistləşdirilməsi təşkil edir.

Humanistlik şəxsiyyətin əxlaqi keyfiyyətinin, mənəvi zənginliyinin göstəricisidir. Əxlaqi prinsip kollektivdaxili və qarşılıqlı münasibətdə, insan fəaliyyətinin müxtəlif aspektlərində təzahür edir. Şəxsiyyətə sistemli yanaşma humanizm tərbiyəsinin əsas komponentlərini (humanist hisslər, humanist münasibətlər, humanist keyfiyyətlər) fərqləndirməyə imkan verir. Humanist hisslər insanın insana, insanın cəmiyyətə münasibətini ifadə edir. Uşaqlara, qocalara, xəstələrə, köməyə ehtiyacı olanlara, ümumiyyətlə, bütün adamlara qayğı və nəvaziş, mehriban münasibət bəxş edən ən gözəl əxlaqi keyfiyyətlər humanizmdə cəmlənir. Sinifdənxaric işlər humanist və demokratik xarakterdə təşkil edilməlidir. Vaxtilə böyük çex pedaqoqu Y.A. Komenski məktəbi "humanizm" emalatxanası, "insanlıq emalatxanası" adlandırırdı. Təhsilin humanistləşdirilməsi, ilk növbədə, şagirdin bilavasitə inkişaf etdirilməsini, özünü bir şəxsiyyət kimi təsdiq etməsini, özünüreallaşdırması üçün əlverişli şəraitin yaradılmasını nəzərdə tutur.

Sinifdənxaric işlərin humanistləşdirilməsi elə bir sistemin yaradılmasını diqqət önünə gətirir ki, burada hər bir şagird azad, bərabər tərbiyə və təhsil ala bilsin, özünütəhsil, özünüidarə, özünüreallaşdırma yolu ilə potentsial imkanlarını üzə çıxartsın, özünü təkmilləşdirsin, təsdiq etsin və həm də başqa adamlarla qarşılıqlı əməkdaşlığa hazır olsun.

Humanistlik "Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu"nda təhsil siyasətinin əsas prinsiplərindən biri kimi verilir. Təhsil Qanununda "humanistlik – milli və ümumbəşəri dəyərlərin, şəxsiyyətin azad inkişafının, insan hüquqları və azadlıqlarının, sağlamlığın və təhlükəsizliyin, ətraf mühitə və insanlara qayğı və hörmətin, tolerantlıq və dözümlülüyün prioritet kimi qəbul olunması" kimi şərh edilir. Onu da əlavə edək ki, "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyasında, "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda, "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"ndə humanist dəyərləri mənimsəyən insan kapitalının bilik və innovasiyalara əsaslanan inkişafı prioritet təşkil etməsi (1) xüsusi olaraq vurğulanır.

Sinifdənxaric və məktəbdənkənar tədbirlərin təşkilində görülən işin məzmununun realizə

edilməsində, humanist və demokratik təhsil mühitinin yaradılmasında həmçinin aşağıdakı eyni əhəmiyyətli prinsiplərə də əməl etmək zərurəti yaranır: 1) Həyata keçirilən tədbirlərin kulturoloji istiqamət prinsipi; 2) tədbirin forma və metodlarının təşkilində humanizm prinsipi; 3) pedaqoji ünsiyyətin humanistləşdirilməsi prinsipi; 4) sinifdənxaric tədbirlərdə əxlaqi-mənəvi və fəaliyyət mühitinin humanistləşdirilməsi prinsipi tərbiyəedici mənəvi mühitin formalaşdırılmasını, sosial-pedaqoji şəraitin yaradılmasını nəzərdə tutur.

11. Sinifdənxaric və məktəbdənkənar tərbiyə işlərində demokratiklik prinsipi isə uşaqların hüquqları təmin edilməsini, arzu və tələblərinə əməl olunmasını, tərbiyə işlərinin seçilməsində onlara geniş hüquqlar verilsini tələb edir. Sinifdənxaric və məktəbdənkənar işlərdə şagirdlərin bərabər hüququ təmin edilib onların sərbəst fəaliyyəti təşkil olunmalıdır.

12. Sinifdənxaric və məktəbdənkənar tərbiyə işlərinin sinfin, məktəbin təlim, tədris və ümumi tərbiyə işləri ilə əlaqələndirilməsi prinsipi. Bu prinsip tələb edir ki, sinifdənxaric və məktəbdənkənar tərbiyə işləri sinfin və məktəbin ümumi tərbiyə və təhsil işləri ilə müntəzəm olaraq uzlaşdırılmalıdır. Təkrar olunmadan məktəbin, sinfin tərbiyə və təhsil işlərinin keyfiyyətinin yüksəlməsinə istiqamətlənməlidir. Ümumiyyətlə, sinifdənxaric və məktəbdənkənar işlər şagirdlərin əsas təlim fəaliyyətinə mane olmamalı, əksinə onun yerinə yetirilməsinə kömək etməli və təhsilin keyfiyyəti yüksəlməlidir. Fəaliyyətini özünəməxsus tərzdə quraraq şagirdlərin elmi dünyagörüşün inkişaf etdirməyə istiqamətlənməlidir.

13. Dərsdə əldə edilmiş biliklərin sinifdənxaric və məktəbdənkənar tədbirlərdə tətbiq edilməsi və möhkəmləndirilməsi prinsipi.

14. Sinifdənxaric və məktəbdənkənar tədbirlərin təşkilində pedaqoji əməkdaşlıq prinsipi tələb edir ki, pedaqoji prosesdə əməkdaşlıq, xoş münasibətlər, dialoqlar şəklində həyata ke-çirilsin. Təlim prosesində əldə edilmiş biliklər sinifdənxaric və məktəbdənkənar tədbirlərdə əməkdaşlıq şəraitində tətbiq edilsin. Belə olan halda qazanılmış biliklər daha da möhkəmlənər və uzun müddət yadda qalar. Bir müdrik fikirdə deyildiyi kimi, "Desən unudaram, göstərsən yadımda qalar, etsəm öyrənərəm".

Praktik olaraq görülən iş, tətbiq olunan bilik unudulmur, öyrənilir. Əməkdaşlıq prinsipində müəllim şagirdlərlə əməkdaşlığa can atmalı, onlarla birgə tədbirlərdə fəal iştirak etməyə səy göstərməlidir. Şagirdlərin rəğbətini qazanan, onların ehtiyacını duyan, onlara valideyn qayğısı göstərən, şəxsiyyətlərinə hörmət edən müəllim öz şagirdlərinin həqiqi mənəvi-əxlaq tərbiyəçisinə, məsləhətçisinə, müdrik yoldaşına çevrilir. Şagirdlər bu cür müəllimi sevir, onu səbirsizliklə gözləyir, böyük məmnuniyyətlə onunla ünsiyyətə girib fikir və hisslərini bölüşürlər. Fənnini sevib, həvəslə tədris fəaliyyətinə qoşulurlar.

İKT-nin sinifdənxaric tərbiyə prosesinə tətbiqi müəllimləri daim öz üzərində çalışmağa, fasiləsiz təhsil almağa, ixtisasını artırmağa, məlumat bazasını yaratmağa yönləndirir. Pedaqoji fəaliyyətlərini hər zaman təhlil etməyə və vaxta qənaətə imkan verir. Bütün bunların nəticəsində müəllimlər qlobal tələblərə müvafiq, savadlı nəsil yetişdirməyə nail olurlar.

Təlim-tərbiyə prosesində qarşıya qoyulmuş məqsədə müvəffəqiyyətlə nail olmaq üçün sinifdənxaric və məktəbdənkənar işlər şagirdlərin tədris işi ilə sıx əlaqələndirilməlidir. Keçirilən sinifdənxaric tədbirlər təlimin keyfiyyətinin yüksəlməsinə, şagirdlərin bilik və dünyagörüşünün genişlənməsinə kömək etməli, onlarda əxlaqi keyfiyyətlər formalaşdırmalıdır. Beləliklə, kiçik yaşlı məktəblilərin tədris fəaliyyətinin sinifdənxaric işlə əlaqələndirilməsi onların fərdi qabiliyyətini, bacarıq və istedadını, mənəvi əxlaqi keyfiyyətlərini əhəmiyyətli dərəcədə inkişaf etdirir, yaradıcılıq potensialını artırır, elmi dünyagörüşünü və fəal həyat mövqeyini məqsədyönlü şəkildə formalaşdırır.

**Problemin elmi yeniliyi.** Kiçik yaşlı məktəblilərin mənəvi tərbiyəsinin ən mühüm vasitələrindən biri kimi sinifdənxaric və məktəbdənkənar tərbiyə işlərinin prinsipləri təhlil olunmuş, onlardan istifadənin imkan və yolları, səmərəli formaları müəyyənləşdirilmiş, bu sahədəki mövcud vəziyyət və tətbiq edilməsi zəruri olan innovativ vasitələr şərh edilmişdir.

**Problemin aktuallığı**. Təhsil haqqında Qanunda göstərilir ki, Azərbaycan respublikasında təhsilin əsas məqsədlərindən biri vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq vətəndaş və şəxsiyyət yetişdirməkdir. Bu ideya ümummilli lider H.Ə. Əliyevin nəzəri irsinə söykənir. O göstərirdi ki, təhsilin ən böyük məqsədi milli və ümumbəşəri də-

yərlərə malik Azərbaycan vətəndaşı yetişdirməkdir. Hər bir gənc gərək dövlətinə, millətinə, ənənələrinə sadiq vətəndaş olsun. Bunun üçün isə gənc nəsildə yüksək mənəviyyat formalaşdırılmalıdır. Çünki mənəviyyat olmayan yerdə heç bir şey ola bilməz.

Bu baxımdan kiçik yaşlı məktəblilərin mənəvi tərbiyəsində sinifdənxaric və məktəbdənkənar tərbiyə işlərinin prinsiplərini öyrənmək və tətbiq etmək xüsusi əhəmiyyətə malikdir. Belə ki, sinifdənxaric və məktəbdənkənar tədbirləri səmərəli təşkil etməklə şagirdlərdə dostluq, sədaqətlilik, vətənpərvərlik, dilimizə, dinimizə, soykökümüzə məhəbbət, azərbaycançılıq, böyüklərə hörmət, əməksevərlik, milli təəssübkeşlik və s. kimi müsbət keyfiyyətlərin aşılanmasında mühüm irəliləyiş, müvəffəqiyyət əldə etmək olar.

**Problemin praktik əhəmiyyəti.** Məqalədən həm ümumtəhsil məktəblərinin ibtidai sinif müəllimləri, həm də pedaqoji təmayüllü ali məktəblərin "İbtidai sinif müəllimliyi" ixtisası üzrə təhsil alan tələbələr tədris prosesində istifadə edə bilərlər.

**Ədəbiyyat:**

1. "Azərbaycan 2020: gələcəyə baxış" inkişaf konsepsiyasi (Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli fərmanı) "Azərbaycan müəllimi" qəz., 2013, 20 yanvar

2. Abbasov A.N., Məmmədzadə R.R., Məmmədli L.A. Pedaqogika: müntəxəbat. Bakı: Mütərcim, 2021, 608 s.

3. İbrahimov F.N., Hüseynzadə R.L. Pedaqogika: Dərslik. 2 cilddə, II c. Bakı: Mütərcim, 2013.

4. Həsənov A., Ağayev Ə.Ə. Pedaqogika. Bakı: Maarif, 2007.

5. Kazımov N.M. Məktəb pedaqogikası. Bakı: Maarif, 2002.

6. Paşayev Ə.X., Rüstəmov F.A. Pedaqogika. Bakı: Elm və təhsil, 2010.

7. Rüstəmov F., Dadaşova T. Ali məktəb pedaqogikası. Bakı: Nurlan, 2007.

8. Rüstəmov F.A., Quliyeva K., Abbasova L., Nəzərova M., Əsgərova T. Ümumtürk pedaqoji fikrində əxlaqi-mənəvi dəyərlər. Bakı: Nurlan, 2002.

9. Sadıqov F. Pedaqogika. Bakı: Elm və təhsil, 2008.

10. Talıbov Y., Ağayev Ə., İsayev İ., Eminov A. Pedaqogika. Bakı: Maarif, 1993.

**E-mail:** menzileraqimova@mail.ru

**Rəyçilər:** *ped.ü.elm.dok., prof.* **R.L. Hüseynzadə**
*ped.ü.fəls.dok., dos.* **M.S. Kazımov**

**Redaksiyaya daxil olub:** 10.03.20